# "Prezidentlərin Minsk görüşünün tarixi hadisə kimi yadda qalma ehtimalı var"

## Qabil Hüseynli: "Rusiya Dağlıq Qarabağ probleminə daha konseptual əsasda yaxınlaşmaq, münaqişə tərəflərinin barışığına nail olmaq fikrindədir"

**Azərbaycan üçün bir nömrəli məsələ Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətrafdakı 7 rayonun danışıqlar yolu ilə azad edilməsinə nail olmaqdır. Yola saldığımız 2015-ci ildə də bu istiqamətdə prezidentlər, xarici işlər nazirləri, ATƏT-in Minsk qrupuna üzv dövlətlərin təmsilçiləri səviyyəsində çoxsaylı görüşlər keçirilməsinə, ən müxtəlif müzakirələr aparılmasına rəğmən, Ermənistanın qeyri-konstruktivliyi səbəbindən münaqişənin həllində hər hansı irəliləyiş müşahidə olunmayıb. Rusiya Federasiyası Xarici İşlər Nazirliyi ötən ilin yekunlarına dair yaydığı açıqlamada Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində görülən işlərə yer ayıraraq, prezident Vladimir Putinin Qarabağ problemini həll etmək barədə qərara gəldiyini ictimailəşdirib. Belə bir ərəfədə Azərbaycan və Ermənistan prezidentlərinin Belarusun paytaxtı Minskdə növbəti görüşünün keçiriləcəyi barədə məlumatlar Dağlıq Qarabağ münaqişəsinin həllinə yeni ümidlər yaradıb. Mövzu ilə bağlı "Kaspi"nin suallarını politoloq Qabil Hüseynli cavablandırır.**



**- Qabil bəy, yola saldığımız 2015-ci ildə Dağlıq Qarabağ probleminin dinc yolla tənzimlənməsi üçün aparılan danışıqları necə qiymətləndirirsiniz? Ötən il bu istiqamətdə əhəmiyyətli sayıla biləcək hər hansı müsbət addım qeydə alınıbmı?**

- 2015-ci il başlayandan ilin sonuna kimi bu istiqamətdə xeyli iş görülüb. Azərbaycan bu işin ağırlıq mərkəzini Rusiya ilə aparılan dialoqa yönəldib. Hər kəs yaxşı başa düşür ki, Dağlıq Qarabağ probleminin həllində Rusiya əhəmiyyətli rol oynaya bilər. Bu səbəbdən xarici siyasətimiz, xüsusən də ölkə başçısı İlham Əliyev Rusiya ilə münasibətlərə böyük diqqət yetirib, münaqişənin dinc yolla tənzimlənməsi üçün rəsmi Moskva ilə intensiv danışıqlar aparıb. Hətta ötən il Dağlıq Qarabağ ətrafındakı 7 rayonun geri qaytarılması məsələsi də xeyli aktuallaşmışdı və həm Azərbaycan, həm də Ermənistan mətbuatı bu mövzuda geniş müzakirələr aparmışdı. Çoxları ehtimal edirdi ki, yay aylarının sonu, payızın əvvəlində 7 rayonun geri qaytarılması məsələsi öz həllini tapa bilər. Bu, münaqişənin tənzimlənməsi üçün aparılan aktiv dialoqun nəticəsi idi. Sonradan ilin sonuna prezidentlərin görüşü təyin olundu və rayonların qaytarılması barədə razılığın da məhz həmin görüşdə əldə olunacağı ehtimal edildi. Lakin belə bir ərəfədə Suriyada hərbi əməliyyatları yerinə yetirən Rusiya bombardmançı təyyarəsinin Türkiyənin hava sərhədini pozması və türk hərbçiləri tərəfindən onun məhv edilməsi Ankara-Moskva münasibətlərinə "sərinlik" gətirdi. Bu iki ölkə arasında artan gərginlik Rusiyanın Dağlıq Qarabağ siyasətinə də təsir göstərdi. Rusiyanın Ermənistana olan münasibəti, bu ölkə ilə bağlı siyasəti ciddi surətdə dəyişdi. Rusiya Ermənistan ərazisini yeni silahlarla doldurdu və nəticədə Avropa konvensiyasına zidd olaraq, bu ölkənin silah-sursat kvotası pozuldu. Digər tərəfdən, Rusiyadakı erməni lobbisi Vladimir Putinə təsir edərək danışıqlar prosesində əldə olunan nailiyyətləri minimuma endirə bildilər. Məhz buna görə də 2015-ci ilin dekabrında İsveçrənin Bern şəhərində keçirilən görüş nəticəsiz başa çatdı. Çünki Ermənistan tərəfi yaranmış situasiyada özünə arxayınlıq hiss edib qeyri-konstruktiv mövqeyini yenidən nümayiş etdirməyə, danışıqlara qeyri-ciddi yanaşmağa başladı. Təbii ki, bu, Azərbaycan tərəfinin böyük narazılığı və danışıqların nəticəsiz başa çatması ilə yadda qaldı. İndinin özündə isə ATƏT-in Minsk qrupunun həmsədrləri prezidentlərin növbəti görüşündən, buna hazırlıqdan danışırlar. Lakin Azərbaycan prezidentinin də dəfələrlə qeyd etdiyi kimi nəticəsiz görüşlərə qatılmağın heç bir əhəmiyyəti yoxdur. Həmsədrlər əvvəlcədən görüşün gündəliyini müəyyən etməli, müzakirə olunacaq məsələlər konkretləşdirilməli, nəticənin olması barədə əvvəlcədən rəy formalaşdırılmalıdır. Bütün bunları nəzərə alsaq deyə bilərik ki, ötən il problemin həlli məqsədi ilə həyata keçirilən diplomatik səylər, şəxsi münasibətlərə söykənən davranışlar və digər hərəkətlər müəyyən irəliləyişlərə səbəb olsa da, ciddi nəticəyə səbəb olmadı.

**- Rusiya XİN-in ötən ilin yekunlarına dair yaydığı açıqlamasında qeyd olunub ki, prezident Vladimir Putin Qarabağ problemini həll etməyi qərara alıb. Həm bu açıqlamanı və XİN rəsmisi Qriqori Karasinin söylədiklərini, həm də beynəlxalq siyasi vəziyyəti nəzərə alsaq, cari ildə münaqişənin həllində hansısa irəliləyişə ümid etmək olarmı?**

- Rusiya Xarici İşlər Nazirliyinin yaydığı açıqlama ilə yanaşı, yeni il ərəfəsində prezident Vladimir Putinin geniş ictimaiyyət üçün nəzərdə tutulmuş müraciətində 2016-cı ildə Dağlıq Qarabağ probleminə daha çox vaxt ayıracağını, münaqişəni mütləq həll etməyə çalışacağını bəyan edib. İlk dəfədir ki, Putinin dilindən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəti, eyni zamanda nikbinlik doğuran bəyanat səslənir. Bunun davamı olaraq Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin də bildirdi ki, Kreml rəhbəri münaqişəni həll etmək üçün ciddi səy göstərmək niyyətindədir. Bundan başqa, o, problemi həll etməyə nail olacaqlarına əminliyini vurğuladı. Qarabağ problemi barədə Rusiyanın bu cür açıq-saçıq mövqeyi indiyə qədər meydana çıxmayıb. Bu gün isə belə bir mövqe ən yüksək səviyyədə ortaya qoyulub. Əlbəttə ki, bu, kifayət qədər ciddi yanaşmadır və bizim üçün də böyük ümidlər yaradır. Görünür, Rusiya Azərbaycanla münasibətlərinə önəm verərək, problemə 2016-cı ildə daha konseptual əsasda yaxınlaşmaq, münaqişə tərəflərinin barışığına nail olmaq fikrindədir. Bunun üçün bir sıra məsələlərdə konsensusun əldə olunmasına çalışacaqlarını bildirirlər. Burada söhbət sadəcə işğal altındakı 7 Azərbaycan rayonunun geri qaytarılmasından getmir. Eyni zamanda Dağlıq Qarabağın statusu və bütövlükdə Madrid prinsiplərinin yerinə yetirilməsi istiqamətində hər iki tərəfin səylərinin gücləndirilməsinə nail olmaq istəyir Rusiya. Azərbaycan tərəfi danışıqlar prosesinə hər zaman hazırdır. Ən prinsipial məsələlərdə belə, konsensus axtarmağın tərəfdarıdır. Bu məsələdə qeyri-konstruktiv mövqe ortaya qoyan, təmas xəttində atəşkəsi pozan, müxtəlif təxribatlar törədən, Bişkek protokolunun, atəşkəs rejiminin işləmədiyini iddia edən Ermənistandır. Ona görə də münaqişənin həllinə nail olmaq istəyən Rusiya, həmçinin ATƏT-in Minsk qrupunun digər həmsədr dövlətləri daha çox Ermənistanla işləməlidirlər. İşğalçı Ermənistan sülh danışıqlarına məcbur edilməlidir.

**- Prezident İlham Əliyev problemin həlli üçün aparılan danışıqlarda hər hansı irəliləyiş əldə olunmayacağı təqdirdə, görüş xətrinə keçirilən görüşlərə qatılmayacağını bəyan etmişdi. Lakin ötən il dekabr ayının 19-da İsveçrənin Bern şəhərində Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü keçirildi və qapalı müzakirələr aparıldı. Hazırda isə Belarusun paytaxtı Minsk şəhərində hər iki dövlət başçısının daha bir görüşünün keçiriləcəyi barədə məlumatlar yayılıb. Rusiya rəsmilərinin bəyanatlarından sonra baş tutacaq Minsk görüşündən nə isə gözləməyə dəyərmi?**

- Bir qədər əvvəl qeyd etdiyim kimi, prezidentlərin Bern görüşü Rusiya-Türkiyə münasibətlərinin korlandığı bir vaxta təsadüf etdi və bu münasibətlərin yaratdığı təəssürat altında keçdi. Ona görə də bu görüş effekt vermədi. Həmin vaxt Rusiya prosesə bir qədər etinasız yanaşdı və problem "ölü nöqtədən" tərpənməsi, hər hansı irəliləyişə nail olunması üçün heç nə etmədi. Ermənistanın bu məsələdə mövqeyi normal dövlətin, normal dövlət başçısının mövqeyi deyil. Ancaq Vladimir Putinin yeni il öncəsi xalqa müraciətində səsləndirdiyi fikirlər, eyni zamanda Xarici İşlər Nazirliyinin söylənilənləri şərh etməsi münaqişənin tənzimlənməsi ilə alaqədar müəyyən nikbinlik yaradır. Prezidentlərin Minskdə keçiriləcək görüşü barədə də məndə nikbinlik var. Bunun bir səbəbi də görüşün Azərbaycan üçün dost olan ölkənin paytaxtında keçirilməsidir. Belarus prezidenti Aleksandr Lukaşenko Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində bu vaxta qədər müəyyən səylər göstərib. Onunla Azərbaycan prezidenti arasında çox yaxın dostluq münasibətləri var. Hər iki ölkə arasındakı münasibətləri də nümunəvi saymaq olar. Münaqişənin həlli istiqamətində danışıqlar aparmaq üçün prezidentlərin növbəti görüşünün Minskdə keçirilməsi Azərbaycanın manevr imkanlarını da genişləndirir. Bu manevr imkanları Rusiya ilə aparılan danışıqlarla bərabər, prosesə Aleksandr Lukaşenkonu da qoşmaq imkanının olması etibarıdır. Ona görə də Minsk görüşünün tarixi hadisə kimi yadda qalma ehtimalı var. Fikir versək görərik ki, Ukrayna proseslərinin nizamlanması məsələsi də Minskdə həllini tapdı, danışıqlarda müəyyən nəticələr əldə olundu. İnanıram ki, Rusiya və Belarus Ermənistana təzyiq və təsir etmək yolu ilə çalışacaqlar görüşdə irəliləyiş əldə olunsun.

**- Yanvarın 1-dən etibarən ATƏT-ə sədrlik Almaniyaya keçib. 2016-cı il boyunca təşkilata rəhbərlik edəcək Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer ölkəsinin sədrliyi dönəmində prioritetləri açıqlayıb. Həmin prioritetlərdən biri də böhranlara reaksiya verməkdir. Bu açıqlamanı, eyni zamanda, indiyə qədər Avropanın digər qurumlarından da münaqişənin həlli ilə bağlı müxtəlif qərarların qəbul edilməsini nəzərə alsaq, cari ildə ATƏT-in, ümumilikdə Avropanın da bu məsələdə fəallıq nümayiş etdirəcəyini gözləmək olarmı?**

- ATƏT-in Dağlıq Qarabağ probleminə münasibəti obyektiv xarakter daşıyır. Baxmayaraq ki, Minsk qrupunun həmsədrləri passiv işləyir, hər hansı nəticəyə nail olmurlar, amma ATƏT Ermənistanın Azərbaycan ərazilərinə təcavüz faktını qəbul edir. Xüsusilə Almaniya Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə bağlı ötən il bəyanat verib. Bu da olduqca mühüm hadisələrdən biridir. Belə olan halda Almaniyanın ATƏT-ə sədrlik etməsi bizim üçün münasibdir. Almaniya Avropa siyasətini müəyyən edən, ATƏT-in siyasətinə də güclü təsir imkanları olan, Avropa İttifaqının lokomotivi sayılan ölkələrdən biridir. Azərbaycan xarici siyasətinin fəallığı sayəsində Dağlıq Qarabağ probleminin anatomiyasını Almaniyaya anlatmaq mümkün olub. Bunun sayəsində Almaniya Ermənistanı açıq şəkildə təcavüzkar adlandırmasa da, Azərbaycanın ərazilərinin bir hissəsinə Ermənistanın nəzarət etdiyini bildirib. Bunun özü də təcavüzkarlığa yaxın bir ifadədir. Belə münasibət tərəflərdən kimin təcavüzə məruz qaldığını, kimin isə işğalçılıq siyasəti yürütdüyünü, bölgədəki durumu mürəkkəbləşdirdiyini nümayiş etdirir. Ümid edirəm ki, ATƏT-ə sədrlik müddətində də Almaniya Dağlıq Qarabağ problemin, Ermənistan Azərbaycan münaqişəsinə daha yaxından bələd olacaq, prosesə münasibəti indikindən də obyektiv xarakter daşıyacaqdır. Rusiya-Almaniya münasibətlərinin səviyyəsini də nəzərə alsaq deyə bilərik ki, Vladimir Putinin 2016-cı ildə Dağlıq Qarabağ problemini həll etmək səyləri Almaniya tərəfindən də müsbət qarşılana bilər, münaqişənin həllinin sürətlənməsinə töhfə verər.

**- Münaqişənin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olur ki, burada Rusiya, Fransa və ABŞ həmsədr dövlətlər səviyyəsində təmsil olunurlar. Dağlıq Qarabağ probleminin növbəti ildə həlli istiqamətində Rusiyanın və Almaniyanın timsalında Avropanın mövqeyi ortadadır. Bəs, ABŞ bu məsələdə nə üçün susqunluq nümayiş etdirir?**

- Amerika Dağlıq Qarabağ probleminin həlli istiqamətində son bir ay yarımdır ki, susqunluq nümayiş etdirir. Lakin buna qədər rəsmi Vaşinqtonun mövqeyi də Azərbaycan üçün məqbul sayılır. ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ölkəmizin ərazi bütövlüyünün pozulduğunu il ərzində yenidən bəyan etdi. ABŞ son bir neçə ayda Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının zəruriliyini də vurğulayıb. Ümumiyyətlə, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli baxımından ABŞ-ın mövqeyində müəyyən irəliləmələr var. Misal üçün, xeyli müddətdir ki, Dağlıq Qarabağ separatçılarına, bu ildən etibarən isə Ermənistana humanitar yardımlar dayandırılıb. Lakin son dövrlər ABŞ və Azərbaycan arasında müəyyən narahatlıqlar yaşanmaqdadır. Ancaq inanmıram ki, bu narahatlıqlar rəsmi Vaşinqtonun Dağlıq Qarabağ probleminə münasibətini dəyişsin. Söhbət regionda qanı axan bir yaradan gedir. Bu yaranın qanını dayandırmaq, onu sağaltmaq üçün Avropanın böyük dövlətləri maraqlıdırlar. Çünki bu münaqişə öz həllini tapmadan regionda sülhdən, təhlükəsizlikdən, sağlam münasibətdən danışmaq əbəsdir. İnsan haqları, demokratiya məsələsində ABŞ ilə Azərbaycan arasında müəyyən fikir ayrılıqları ola bilər. Ancaq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həlli məqsədi ilə formalaşmış fikirlər heç zaman dəyişməyəcək.

**Rufik İSMAYILOV**